İLLİK HESABAT
ANNUAL REPORT
2006

Mündəricat / Contents

Hörmətli xanımlar və cənablar,

2006-cı il Azərbaycan tarixində və eləcə də Bank Respublika-nın 15 illik fəaliyyəti dövründə bir çox nailiyyətlərlə yadda qalan il olmuşdur.

Azərbaycan iqtisadiyyatı 2006-cı ildə sürətlə inkişaf etmişdir. Ötən il Ümumi Daxili Məhsulun real həcmi 34,5% artmışdır və bu bütün dünya üzrə çox yüksək göstəricidir. Ölkədə aparılan iqtisadi siyasətin nəticəsində sürətli inkişaf iqtisadiyyatın əksər sahələrini əhatə etmişdir.

2006-cı ildə bank sektorunun da dinamik inkişafı davam etmişdir. Ötən il milli valyutanın denominasiyası, ipoteka kreditləşməsi üzrə dövlət proqramının icrası, bankların maliyyə göstəricilərinin artımı, beynəlxalq maliyyə institutlarının Azərbaycan bank sektorunda daha fəal iştirakı, bankların xidmət şəbəkəsinin genişlənməsi və digər uğurlarla yadda qalmışdır.

Azərbaycan bank sektorunun aparıcı banklarından olan Bank Respublika 2006-cı ildə də mühüm nailiyyətləri və sürətli inkişaf dinamikası ilə seçilmişdir.

Bank Respublika-nın ümumi aktivləri 2006-cı ildə 94% artmışdır. Maliyyə göstəricilərinin əhəmiyyətli artımı nəticəsində Bank Respublika-nın Azərbaycan bank sektorunda mövqeləri daha da güclənmişdir.

Bank Respublika-nın mühüm nailiyyətlərindən biri də ötən il Moody's Investors Service beynəlxalq reytinq agentliyindən reytinqlər almasıdır. Bank Respublika Azərbaycanda beynəlxalq reytinq alan ilk banklardandır və Bankın reytinqləri Azərbaycanın özəl bank sektorunda ən yüksək reytinqlərdir.

2006-cı ildə Bankın nizamnamə kapitalı da artırılmışdır. Bu artım həm yerli səhmdarlar, həm də 2005-ci ildən "25% + 1 səhm" payla Bankın səhmdarları olan Almaniyanın KfW bank qrupunun üzvü DEG və Sparkassen-Finanzgruppe üzvü SIDT tərəfindən yeni sərmayələr hesabına olmuşdur.

Dear Ladies and Gentlemen,

2006 was a remarkable year with many achievements in the history of Azerbaijan, as well as in 15 years of operation of Bank Respublika.

The economy of Azerbaijan developed rapidly in 2006. The real volume of Gross Domestic Product increased by 34.5% last year, which is a very high index in the world. As a result of the economic policy conducted in the country, the development has covered most sectors of the economy.

In 2006, the banking sector continued its development. Last year was notable with denomination of the national currency, execution of the state program on mortgage lending, the growth of financial indicators of banks, participation of the international financial institutions in Azerbaijan banking sector, the expansion of service network of banks and other successes.

Bank Respublika, one of the leading banks in Azerbaijan banking sector, has excelled with important achievements and rapid development.

The total assets of Bank Respublika increased by 94% in 2006. Bank Respublika has further strengthened its position in the banking sector of Azerbaijan due to significant increase of its financial indicators.

One of the most important achievements of Bank Respublika is a rating from the international rating agency Moody's Investors Service. Bank Respublika is one of the first banks to receive international rating in Azerbaijan, and its ratings are the highest ones in the private banking sector of Azerbaijan.

In 2006, the charter capital of the Bank was also increased. This increase was possible due to new shares from local shareholders, as well as German KfW banking group member DEG and Sparkassen-Finanzgruppe member SIDT, the shareholders of the Bank since 2005 with "25% plus 1 share" stake.

Bank Respublika dünyanın aparıcı maliyyə institutları ilə sahibkarlığın kreditləşməsi və ticarət maliyyələşdirilməsi üzrə əməkdaşlığı da genişləndirmişdir. Bank bu istiqamətlərdə Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, FMO, DEG, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Alman-Azərbaycan Fondu, Raiffeisen Bank, Commerzbank AG və digər maliyyə təşkilatları ilə əməkdaşlıq edir. Bank Respublika üçün açılmış kredit xətlərinin həcmi 70 mln. USD məbləğini keçmişdir.

Bank Respublika sahibkarlığın kreditləşdirilməsi və ipoteka kreditləşməsi üzrə dövlət proqramları üzrə Sahibkarlığa Yardım Milli Fondu və Azərbaycan İpoteka Fondu ilə də fəal əməkdaşlıq edir.

2006-cı ildə Bank Respublika yeni 2 filial və 4 şöbə hesabına müştəri xidməti şəbəkəsini genişləndirmişdir. 2007-ci ildə Bankın yeni ofislərinin açılışı üçün də ötən il bir çox işlər görülmüşdür.

Ötən il Bankda müştəri xidməti səviyyəsinin daha da yüksəldilməsi məqsədi ilə müştərilərə yeni xidmətlərin təqdim edilməsini, yeni bank proqramının tətbiqini, ixtisaslaşdırılmış məlumat mərkəzinin yaradılmasını, CRM sisteminin tətbiqi sahəsində işləri də qeyd etmək olar.

2006-cı ildə həyata keçirilən fəaliyyət Bankın müştəri bazasının genişlənməsini və Bankın maliyyə göstəricilərinin artımını təmin etmişdir.

Ötən ilin uğurlu nəticələrinə görə Bankın bütün Səhmdarlarına, Əməkdaşlarına, Müştərilərinə və Tərəfdaşlarına təşəkkür edirəm və gələcək işlərində yeni nailiyyətlər arzulayıram.

Hörmətlə,
Elçin Quliyev
Müşahidə Şurasının Sədri

Bank Respublika expanded its cooperation with leading financial institutions of the world on the business lending and trade financing. The Bank collaborates on these directions with the European Bank for Reconstruction and Development, Asian Development Bank, FMO, DEG, Black Sea Trade and Development Bank, German-Azerbaijan Fund, Raiffeisen Bank, Commerzbank AG and other financial organizations. The volume of credit lines established for Bank Respublika exceeded USD 70 mln.

Bank Respublika actively cooperates with the National Fund for Support of Entrepreneurship and Azerbaijan Mortgage Fund on the state programs on crediting entrepreneurship and mortgage lending.

In 2006 Bank Respublika broadened its customer services network by opening 2 new branches and 4 service points. Much work was done last year to open the Bank's new offices in 2007.

The new services for customers, a new bank software, creation of a specialized information center and work on the application of CRM system were aimed at further improving the level of customer service of the Bank.

Activity in 2006 has assured the expansion of client base and the growth of financial indexes of the Bank.

I thank all the Shareholders, Employees, Customers and Partners of the Bank for last year's successful results and wish new achievements in your future endeavors.

Respectfully,
Elchin Guliyev
Chairman of Supervisory Board


Bank Respublika

Hörmətli xanımlar və cənablar,

2006-cı il Azərbaycanın sürətli inkişafı baxımından əlamətdar il olmuşdur. Dinamik inkişaf bank sektorunda da özünü göstərmişdir.

Ötən il Bank Respublika üçün də uğurlu olmuşdur. Bankın aktivləri ötən il 94% artaraq 111 mln. AZN məbləğini keçmişdir. Bankın kredit portfeli isə 2006-cı ildə 2,4 dəfə artaraq 75,4 mln. AZN olmuşdur.

Bank Respublika sahibkarlığın kreditləşməsi və ticarətin maliyyələşdirilməsi üzrə beynəlxalq maliyyə təşkilatları ilə əməkdaşlığı da genişləndirmişdir. 2006-cı ildə Avropa Yenidənqurma və İnkişaf Bankının bu istiqamətlərdə Bank Respublika üçün ayırdığı kredit xətləri 18 mln. USD məbləğinədək artmışdır.

Hollandiya İnkişaf Maliyyə Şirkəti (FMO) və Bank Respublika arasında 10 mln. USD məbləğində kredit xəttinin açılması üzrə ötən il imzalanmış müqavilə isə Azərbaycanın özəl bank sektorunda bu sahədə ən iri müqavilə olmuşdur.

Bank Respublika sahibkarlığın kreditləşməsi və ticarətin maliyyələşdirilməsi üzrə Asiya İnkişaf Bankı, DEG, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Alman-Azərbaycan Fondu, Raiffeisen Bank, Commerzbank AG və digər maliyyə təşkilatları ilə də əməkdaşlıq edir. Bank Sahibkarlığa Yardım Milli Fondu və Azərbaycan İpoteka Fondu ilə də əməkdaşlıq edir.

Bank Respublika 2006-cı ildə Moody's Investors Service agentliyindən milli və xarici valyutada əmanətlər üzrə B2 dərəcəli uzunmüddətli və NP dərəcəli qısamüddətli reytinqlər almışdır. Reytinqlər "stabil" proqnozuna malikdir. Bank Respublika ölkədə beynəlxalq reytinq alan ilk banklardandır və bu reytinqlər Azərbaycanın özəl bank sektorunda ən yüksək reytinqlərdir.

Bank Respublika-da müştəri depozitlərinin ötən il 2,3 dəfə artması və 52 mln. AZN məbləğini keçməsi Bankın nüfuzunun və fəallığının daha bir göstəricisidir.

Dear Ladies and Gentlemen,

2006 was a remarkable year for Azerbaijan in terms of its rapid development. The dynamic development covered the banking sector, too.

Last year was also successful for Bank Respublika. The Bank's assets increased by 94% last year exceeding AZN 111 mln. Its credit portfolio rose 2.4 times and amounted to AZN 75.4 mln.

Bank Respublika expanded its cooperation with the international financial organizations on the business lending and trade financing. In 2006 credit lines for these purposes established for Bank Respublika by the European Bank for Reconstruction and Development were up to USD 18 mln.

The credit line agreement worth USD 10 mln, which was signed last year between the Netherlands Development Finance Company (FMO) and Bank Respublika was the largest agreement in this area in the private banking sector of Azerbaijan.

Bank Respublika also collaborates on the business lending and trade financing with Asian Development Bank, DEG, Black Sea Trade and Development Bank, German-Azerbaijan Fund, Raiffeisen Bank, Commerzbank AG and other financial organizations. The Bank also collaborates with the National Fund for Support of Entrepreneurship and Azerbaijan Mortgage Fund.

In 2006, Bank Respublika received B2 long-term and NP short-term ratings on national and foreign currency deposits from Moody's Investors Service. The ratings are with "stable" forecast. Bank Respublika is one of the first banks in the country to receive international ratings, which are the highest ratings in the private bank sector of Azerbaijan.

The Bank's customer deposits grew 2.3 times and exceeded AZN 52 mln. last year, which is another sign of the Bank's reputation and activeness.

2006-cı ildə Bank Respublika yeni səhmlərin və 2 dəfə ümumilikdə 3 mln. AZN məbləğində istiqrazların emissiyasını aparmışdır.

Ötən il Bank xidmət şəbəkəsini də genişlənmişdir. Bankın Bakı, Gəncə, Sumqayıt, Quba, Xaçmaz, Lənkəran, Yevlax, Bərdə və Şəmkir şəhərlərində 12 filialı və 4 şöbəsi mövcuddur. 2007-ci ilin əvvəlində Bakı və Göyçay şəhərlərində yeni 3 şöbənin açılışı da gözlənilir.

Bank Respublika VISA International sisteminin assosiativ üzvü, MasterCard International sisteminin isə prinsipial üzvüdür. Bank Respublika ötən il müştərilərə yeni kredit, plastik kart və pul köçürmə xidmətləri təqdim etmişdir.

2006-cı ildə Bankın 14 illiyi ilə bağlı reklam və PR kampaniyaları keçirilmişdir. 2007-ci ilin yanvar ayında istifadəyə verilməsi nəzərdə tutulan Bankın yeni İnternet səhifəsi də hazırlanmışdır.

Ötən il müştərilər arasında uduş kampaniyaları da keçirilmişdir. Bank müştərilərlə işi gücləndirmək üçün "banka zəng 144" adlı Azərbaycan bank sektorunda yeni informasiya xidməti yaratmışdır. Bank proqramının yenilənməsi həmçinin müştərilərlə daha səmərəli işin aparılmasına yönəlibdir.

Ötən il Bankın əməkdaşlarının sayı da artmışdır və onların peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsində də yaxşı nəticələr əldə edilmişdir.

Ötən ilin uğurlu olması münasibəti ilə Bankın Səhmdarlarını və Əməkdaşlarını təbrik edirəm, onlara və həmçinin Müştərilərimizə və Tərəfdaşlarımıza təşəkkür edirəm və yeni nailiyyətlər arzulayıram.

Xoş arzularla,
Xədicə Həsənova
İdarə Heyətinin Sədri

Bank Respublika issued new shares, and new bonds twice in 2006.

The Bank further expanded its services network last year. It has now 12 branches and 4 service points in Baku, Ganja, Sumgayit, Guba, Khachmaz, Lankaran, Yevlakh, Barda and Shamkir. The opening of 3 new service points in Baku and Goychay is expected in early 2007.

The Bank is the associative member of VISA International system, and the principal member of the MasterCard International system. Bank Respublika offered the customers new credit, plastic cards and money transfer services last year.

On the occasion of its 14th anniversary in 2006, the Bank held advertising and PR campaigns. The Bank's new web site, expected to be launched in January of 2007, was also created.

The Bank held winning campaigns among the customers last year. It introduced a new information service in the banking sector of Azerbaijan named "Call the Bank 144" to closely work with customers. The bank software was also updated in an attempt to conduct more efficient work with the customers.

The number of the Bank's employees increased in the year under review and better results were achieved in their professional development.

I congratulate the Shareholders and Employees of the Bank on the successful past year, and thank them and our Customers and Partners, and wish new accomplishments.

With best wishes,
Khadija Hasanova
Chairperson of Executive Board

İdarə Heyəti
Executive Board

1. Asəf Namazov
   Asaf Namazov
2. Rafael Qasımov
   Rafael Gasimov
3. Xədicə Həsənova
   Khadija Hasanova
4. Aslan Abasov
   Aslan Abasov
5. Aqşin Əmirov
   Agshin Amirov

1

2006-cı ildə Azərbaycan iqtisadiyyatı

Economy of Azerbaijan in 2006

2006-cı ildə Azərbaycan iqtisadiyyatının inkişaf sürəti müasir dünyada ən yüksək səviyyəyə qalxmışdır. İqtisadi artım makroiqtisadi göstəricilərdə öz əksini tapmışdır.

Ötən il ölkədə Ümumi Daxili Məhsulun həcmi 17,7 mlrd. AZN, adambaşına düşən ÜDM-in həcmi isə 2120 AZN məbləğini keçmişdir. ÜDM-in real artımı ötən il 34,5% olmuşdur.

In 2006, the economic development rate of Azerbaijan reached the highest level in the modern world. The economic growth was reflected in the macroeconomic indicators.

The volume of Gross Domestic Product exceeded AZN 17.7 bln, and the volume of GDP per capita exceeded AZN 2120 respectively, last year. GDP's real growth was 34.5%.

Ümumi Daxili Məhsul (mlrd. AZN)
Gross Domestic Product (bln. AZN)



ÜDM-nin real artımı
Real growth rate of GDP



ÜDM-də sənayenin payı 58,3%, kənd, ovçuluq və meşə təsərrüfatı – 7,1%, tikinti – 7,5%, nəqliyyat – 5,3%, topdan və pərakəndə ticarət – 5,6%, rabitə – 1,8%, sosial sahə və digər xidmətlər – 7,9%, məhsula və idxala xalis vergilər – 6,5% olmuşdur.

Share of industry in GDP was 58.3%, agriculture, hunting and forestry – 7.1%, construction – 7.5%, transportation – 5.3%, wholesale and retail trade – 5.6%, communication – 1.8%, social sector and other services – 7.9%, net taxes on product and import – 6.5%.

Göstəricilər / Indicators	2003	2004	2005	2006
İstehlak qiymətlərinin artımı (%) Consumer price change (%)	2,6	6,7	9,6	8,3
AZN-in USD-yə orta illik nisbəti Average AZN rates to USD	0,98	0,98	0,95	0,89
Büdcə gəlirlərinin illik artımı (%) Budget revenues annual growth (%)	34,1	20,8	26,4	88,8
Büdcə kəsri / profisiti (ÜDM üzrə %) Budget deficit / proficit (% from GDP)	–0,2	–0,2	–0,7	+0,5
Dövlət borcu (ÜDM üzrə %) Gross governmental debt (% from GDP)	23,4	18,6	12,6	11,0
Valyuta ehtiyatları (mlrd. USD) Currency reserves (bln. USD)	1,6	1,8	2,4	3,4

Yüksək iqtisadi artım həm böyük neft-qaz layihələrinin həyata keçirilməsi, həm də qeyri-neft sektorunun davamlı inkişafı ilə bağlıdır.

Beynəlxalq layihələr üzrə Azərbaycanın neft və qaz yataqlarının işlənilməsi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin istismara verilməsi, Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin tikintisi bu sahənin və bütövlükdə iqtisadiyyatın inkişafını təmin etmişdir.

Neft ixracı dünyada enerji təhlükəsizliyi baxımından Azərbaycanın rolunu artırmışdır. Neft-qaz layihələri Azərbaycanda və bütün regionda sabitliyin və inkişafın təminatına çevrilmişdir. Dövlət Neft Fondunda toplanan neft gəlirləri mühüm iqtisadi və sosial proqramların həyata keçirilməsində də istifadə edilir.

2006-cı ildə sənaye məhsulunun həcmi 36,6%, kənd təsərrüfatı məhsullarının həcmi 0,9%, əsas kapitala yönəldilən sərmayələr 14,8%, nəqliyyat sektorunda yük daşınması 13,0%, rabitə xidmətlərinin həcmi 24,0%, əmtəə dövriyyəsi 13,5%, əhaliyə göstərilən pullu xidmətlərin həcmi isə 42,1% artmışdır.

İqtisadiyyatın hərtərəfli inkişafının daha bir göstəricisi 2006-cı ildə qeyri-neft sektorunda 12,1% artımın olmasıdır. Ölkədə qeyri-neft sektorunun, sahibkarlığın və regionların inkişafı üzrə proqramlar və tədbirlər həyata keçirilir.

2006-cı ildə Azərbaycan 139 ölkə ilə 11,6 mlrd. USD məbləğində ticarət əməliyyatları aparmışdır. Ötən il ixracın həcmi 46,6% artaraq 6,37 mlrd. USD, idxalın həcmi isə 25,0% artaraq 5,27 mlrd. USD olmuşdur.

Beynəlxalq neft-qaz və nəqliyyat layihələri, xarici sərmayələrin Azərbaycanda yerləşdirilməsi, "Avropada qonşuluq siyasəti" üzrə görülən işlər, digər ölkələrlə iqtisadi əlaqələr Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasını dərinləşdirmişdir.

Ölkədə aparılan iqtisadi siyasətin nəticəsində son 12 ildə davam edən inkişaf 2006-cı ildə daha da güclənmiş və beləliklə Azərbaycan regionun iqtisadi mərkəzinə çevrilmişdir.

High economic growth is connected with the implementation of large oil and gas projects, as well as the sustainable development of non-oil sector.

The development of Azerbaijan's oil and gas fields, exploitation of Baku-Tbilisi-Ceyhan oil export pipeline, construction of Baku-Tbilisi-Erzurum gas pipeline within international projects ensured the development of this sector and the overall economy.

Oil export increased the role of Azerbaijan in terms of global energy security. Oil and gas projects became guarantee for stability and development in Azerbaijan, and the entire region. Oil revenues accumulated in the State Oil Fund are also used for the realization of important economic and social programs.

In 2006 the volume of industrial products increased by 36.6%, agricultural products – 0.9%, fixed capital investments – 14.8%, cargo shipment in transportation sector – 13.0%, volume of communication services – 24.0%, trade turnover – 13.5%, volume of chargeable customer services – 42.1%.

Another indicator of the comprehensive development of economy is 12.1% growth in the non-oil sector in 2006. Programs and measures are carried out on the development of non-oil sector, entrepreneurship and on the development of the regions.

Azerbaijan realized trade operations with 139 countries worth USD 11.6 bln in 2006. Export volume reached USD 6.37 bln with an increase of 46.6% and import was USD 5.27 bln with an increase of 25.0%.

International oil-gas and transportation projects, foreign investing in Azerbaijan, the work carried out on the "European Neighborhood Policy" and economic relations with other countries deepened Azerbaijan's integration into the world economy.

Sustainable development over the last 12 years as a result of the economic policy pursued in the country was further strengthened and Azerbaijan became the economic center of the region.

2

2006-cı ildə Azərbaycan bank sektoru

Banking sector of Azerbaijan in 2006

Azərbaycan bank sektoru 2006-cı ildə öz sürətli inkişafını davam etdirmişdir. Bu inkişaf bank sektorunun həm maliyyə göstəricilərinin artımında, həm də keyfiyyətcə daha yüksək səviyyəyə qalxmasında görünür.

2006-cı ildə ölkədə 44 kommersiya bankı fəaliyyət göstərib və bunlardan 42-si özəl banklar, 1 tam və 1 qismən dövlət banklarıdır. Son 3 ildə bankların ümumi sayı sabit qalsa da, bankların filial və şöbələrinin sayı təkcə ötən il 23% artmışdır.

Ötən il bankların kapitalı 55,4% artmışdır, 1 banka orta hesabla düşən kapitalın həcmi isə 13,7 mln. AZN məbləğini keçmişdir. Azərbaycanda 20 tam və ya qismən xarici kapitallı bank mövcuddur ki, bu da xarici və beynəlxalq maliyyə təşkilatlarının Azərbaycan bank sektorunda iştirakının göstəricisidir.

Ümumi aktivlər (mln. AZN)
Total assets (mln. AZN)



Bankların aktivləri ötən il 67,8% artmışdır, onların ÜDM-yə nisbəti isə 2006-cı ilin yekunlarına əsasən 21,3% olmuşdur. Bankların aktivlərinin hər il sürətli artımı və onların ÜDM-yə nisbətdə yüksək olmaması, Azərbaycanda bank sektorunun inkişafı üçün böyük potensialı göstərir.

Bank sektoru üzrə ümumi kredit portfeli ötən il 64,0% artmışdır. Ümumi kredit portfelində dövlət banklarının payı 45,2%, özəl bankların payı 52,1%, qeyri-bank kredit təşkilatlarının payı isə 2,7% təşkil etmişdir.

The banking sector of Azerbaijan continued its rapid development in 2006. This development is obvious both in the increase of financial indicators and higher quality of the banking sector.

44 commercial banks operated in the country in 2006. 42 out of them are private, 1 is fully and 1 is partially state-owned bank. Only last year the number of banks' branches and service points grew by 23%, while general number of the banks remained unchanged during the last 3 years.

Capital of banks rose by 55.4% and the average capital per bank exceeded AZN 13.7 mln. Currently, 20 banks with full or partial foreign capital operate in Azerbaijan. That indicates participation of foreign and international financial organizations in Azerbaijan banking sector.

Ümumi kredit portfeli (mln. AZN)
Total credit portfolio (mln. AZN)



Banks' assets rose by 67.8% last year and their ratio to GDP was 21.3% according to the last year's results. The rapid growth of banks' assets every year and their low ratio to GDP illustrate a great potential for the development of the banking sector in Azerbaijan.

Total credit portfolio on the banking sector increased by 64.0% last year. The share of state banks in the total credit portfolio was 45.2%, share of private banks – 52.1% and share of non-bank credit organizations was 2.7%.

Banklarda müştəri depozitləri 2006-cı ildə 64,5% artaraq 2129,2 mln. AZN olmuşdur. Bu məbləğin 56,8% hissəsi hüquqi şəxslərin, 43,2% hissəsi isə fiziki şəxslərin depozitləridir. Ötən ilin sonuna müştəri depozitlərinin 49,2% hissəsi müddətli, 50,8% hissəsi isə tələbli depozitlər olmuşdur.

Azərbaycan bank sektorunda 2006-cı ildə kəmiyyət göstəricilərinin artımı ilə yanaşı keyfiyyət dəyişiklikləri də olmuşdur.

2006-cı ilin əvvəlində milli valyutanın denominasiyası aparılmışdır: yeni Azərbaycan manatı (AZN) dövriyyəyə buraxılmış və qiymətlər miqyası 5000 dəfə kiçilmişdir. Ötən ilin dekabr ayında orta aylıq məzənnəyə görə 1 ABŞ dolları 0,87 AZN, 1 avro isə 1,15 AZN olmuşdur.

Ölkə Prezidentinin təsdiq etdiyi İpoteka Kreditləşməsi üzrə Dövlət Proqramına əsasən İpoteka Fondunun yaradılması və müvəkkil banklar vasitəsi ilə ipoteka kreditlərinin verilməsi də 2006-cı ilin vacib nailiyyətlərindəndir. Ötən il Dövlət proqramı ilə sahibkarlığın inkişafına ayrılan kreditlərin həcmi də artırılmışdır.

2006-cı ildə bank sektorunda edilmiş yeniliklərdən biri də "Millikart" prosessinq mərkəzinin özəlləşdirilməsi və özəl bankların idarəçiliyinə verilməsi olmuşdur.

Bank sistemi üzrə hüquqi-normativ bazanın təkmilləşməsi və banklarda korporativ idarəetmənin gücləndirilməsi Azərbaycan bank sisteminin inkişafını və Avropa standartlarına yaxınlaşmasını təmin etmişdir.

2006-cı ildə xarici və beynəlxalq maliyyə təşkilatlarının Azərbaycana marağı artmışdır. Bir sıra Azərbaycan bankları Avropa Yenidənqurma və İnkişaf Bankı, Beynəlxalq Maliyyə Korporasiyası, Asiya İnkişaf Bankı, KfW Bank Qrupu, FMO və digər təşkilatlarla kredit xətlərinin açılması və / və ya kapitala sərmayə qoyulması üzrə əməkdaşlığı genişləndirmişlər.

Ölkə rəhbərliyinin, Azərbaycan Milli Bankının və kommersiya banklarının fəaliyyəti və səyləri nəticəsində ölkənin bank sektorunda sürətli inkişafın gələcək illərdə də davam edəcəyi gözlənilir.

Customer deposits in banks grew by 64.5% in 2006 and amounted to AZN 2129.2 mln. 56.8% of this amount belongs to legal entities and 43.2% belongs to individuals. By the end of the last year 49.2% of customer deposits was term deposits and 50.8% was demand deposits.

There were quality changes in Azerbaijan banking sector along with the growth of quantity indicators.

Denomination of national currency was implemented in early 2006: new manat (AZN) was put into circulation and the price rate was reduced 5000 times. According to average monthly rate of December 2006, USD 1 was equal to AZN 0.87, and euro – AZN 1.15.

The creation of the Mortgage Fund and mortgage lending through authorized banks in accordance with the State Program on the Mortgage Lending, approved by President, is an important achievement of 2006. Credit allocation under the State Program for the entrepreneurship development increased too.

One of the innovations in the banking sector in 2006 is the privatization of the "MilliKart" processing center and its management by private banks.

The improvement of legal-normative base and corporate management in Azerbaijan banking system ensured its development and convergence to European standards.

In 2006 the interest of foreign and international financial organizations to Azerbaijan was increased. A number of Azerbaijani banks expanded their cooperation on the establishment of credit lines and/or capital investing with the European Bank for Reconstruction and Development, International Finance Corporation, Asian Development Bank, KfW banking group, FMO and other organizations.

Thanks to the activity and efforts of the country's leadership, the National Bank of Azerbaijan and commercial banks, the rapid development of the banking sector is expected to continue in the coming years.

3

Bank Respublika haqqında ümumi məlumat

General information about Bank Respublika

Bankın yaranması

Bank Respublika 22 may 1992-ci il tarixdə Azərbaycan Respublikası Milli Bankının lisenziyası əsasında fəaliyyətə başlamışdır.

Establishment of the Bank

Bank Respublika started its operation on May 22, 1992 on the basis of the license issued by the National Bank of the Republic of Azerbaijan.

Səhmdarlar

Yerli səhmdarlar	75%
Almaniyanın maliyyə təşkilatları	25%+1 səhm
– DEG İnvestisiya Şirkəti (KfW bank qrupunun üzvü)	16,67%
– SIDT (Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü)	8,33%

Shareholders

Local shareholders	75%
Financial organizations of Germany	25%+1 share
– DEG Investment Company (KfW banking group member)	16.67%
– SIDT (Sparkassen-Finanzgruppe financial group member)	8.33%

Bankın beynəlxalq reytinqi

Bank 2006-cı ildə Moody's Investors Service agentliyindən milli və xarici valyutada əmanətlər üzrə B2 dərəcəli uzunmüddətli və NP dərəcəli qısamüddətli reytinqlər almışdır. Bütün reytinqlər "stabil" proqnozuna malikdir. Bu reytinqlər Azərbaycanın özəl bank sektorunda ən yüksək reytinqlərdir.

International rating of the Bank

In 2006 Bank Respublika received B2 long term and NP short term ratings from Moody's Investors Service on national and foreign currency deposits. All ratings are with "stable" forecast. These ratings are the highest ratings in the private banking sector of Azerbaijan.

Əsas maliyyə göstəriciləri
(31 dekabr 2006-cı il tarixinə)

Ümumi aktivlər	111,3 mln. AZN
Müştərilərə verilmiş kreditlər	75,4 mln. AZN
Müştərilərin depozitləri	52,4 mln. AZN
Ümumi kapital	11,9 mln. AZN

Main financial indicators
(as of December 31, 2006)

Total assets	AZN 111.3 mln.
Loans to customers	AZN 75.4 mln.
Customer deposits	AZN 52.4 mln.
Total capital	AZN 11.9 mln.

Xidmət şəbəkəsi (31 dekabr 2006-cı il tarixinə)

Bankın xidmət şəbəkəsi Bakı, Gəncə, Sumqayıt, Quba, Xaçmaz, Lənkəran, Yevlax, Bərdə və Şəmkir şəhərlərində fəaliyyət göstərən 12 filial və 4 şöbədən ibarətdir.

Service Network (as of December 31, 2006)

The Bank's service network consists of 12 branches and 4 service points operating in Baku, Ganja, Sumgayit, Guba, Khachmaz, Lankaran, Yevlakh, Barda and Shamkir.

Əməkdaşların sayı
(31 dekabr 2006-cı il tarixinə)

305 nəfər

Number of employees
(as of December 31, 2006)

305

Müşahidə Şurası

- Elçin Quliyev — Sədr
- Nail Şahverdiyev — Üzv
- Çingiz Mehdiyev — Üzv
- Qudrun Buş (DEG) — Üzv
- Karsten Steffan (SIDT) — Üzv

Supervisory Board

- Elchin Guliyev — Chairman
- Nail Shahverdiyev — Member
- Chingiz Mehdiyev — Member
- Gudrun Busch (DEG) — Member
- Carsten Steffan (SIDT) — Member

İdarə Heyəti

- Xədicə Həsənova — Sədr
- Asəf Namazov — Sədrin 1-ci Müavini
- Rafael Qasımov — Sədr Müavini
- Aslan Abasov — Sədr Müavini
- Aqşin Əmirov — Üzv

Executive Board

- Khadija Hasanova — Chairperson
- Asaf Namazov — First Deputy Chairman
- Rafael Gasimov — Deputy Chairman
- Aslan Abasov — Deputy Chairman
- Agshin Amirov — Member

4

Bankın beynəlxalq reytinqi

International rating of the Bank

2006-cı ildə Bank Respublika-nın mühüm nailiyyətləri sırasında beynəlxalq reytinqin alınması xüsusi əhəmiyyətə malikdir.

Bank Respublika beynəlxalq reytinqi 2006-cı ilin dekabr ayında Moody´s Investors Service agentliyindən almışdır.

Bank Respublika milli və xarici valyutada olan əmanətlər üzrə B2 dərəcəli uzunmüddətli və NP dərəcəli qısamüddətli reytinqlər almışdır. Bütün reytinqlər "stabil" proqnozuna malikdir.

Bank Respublika Azərbaycanda beynəlxalq reytinq almış ilk banklardandır. Bank Respublika-ya təqdim edilmiş reytinqlər Azərbaycanın özəl bank sektorunda ən yüksək reytinqlərdir.

Bank Respublika-nın Azərbaycanın özəl bank sektorunda ən yüksək olan B2 dərəcəli beynəlxalq reytinq alması Bankın 14 illik fəaliyyətinin nəticələrinə və hazırkı inkişaf səviyyəsinə verilmiş qiymətdir.

Almaniyanın böyük maliyyə institutlarının (KfW bank qrupunun üzvü DEG və Sparkassen-Finanzgruppe maliyyə qrupunun üzvü SIDT) Bank Respublika-nın səhmdarları sırasında olması, həmçinin onların strateji idarəetmədə iştirakı və onlar tərəfindən göstərilən texniki dəstək də Banka verilmiş reytinqə müsbət təsir göstərən amillərdəndir.

Moody's Investors Service agentliyi Bank Respublika-nın Azərbaycanın müxtəlif regionlarında filial şəbəkəsini genişləndirmək, Bankın kiçik və orta biznes, həmçinin istehlak kreditləri sektorlarına istiqamətlənməsini də müsbət dəyərləndirmişdir.

1914-cü ildən fəaliyyət göstərən və hazırda dünyanın əsas aparıcı beynəlxalq reytinq agentliklərindən olan Moody´s Investors Service tərəfindən Bank Respublika-ya təqdim edilmiş reytinqlər Bankın nailiyyətlərini və etibarlığını əks etdirməklə yanaşı onun gələcək inkişafı üçün də yeni imkanlar yaratmışdır.

Receiving international rating is of special importance among significant achievements of Bank Respublika in 2006.

Bank Respublika received international rating from Moody's Investors Service in December of 2006.

Bank Respublika received B2 long term and NP short term ratings on national and foreign currency deposits. All ratings are with "stable" forecast.

Bank Respublika is one of the first banks in Azerbaijan to receive international rating. The ratings given to Bank Respublika are the highest ratings in the private banking sector of Azerbaijan.

Receiving B2 international rating, the highest in the private banking sector of Azerbaijan, is a esteem for the results of the Bank's 14 years of operation and its current development rate.

The participation of large financial institutions of Germany (KfW banking group member DEG and Sparkassen-Finanzgruppe financial group member SIDT) in the shareholders capital of Bank Respublika and their engagement in the strategic management and technical support are factors positively affecting the rating given to the Bank.

Moody's Investors Service also positively assessed Bank Respublika's efforts in expanding its branch networks in various regions of Azerbaijan, targeting at small and medium business and consumer loans sectors.

The ratings given to Bank Respublika by Moody's Investors Service, which has been operating since 1914 as one of the leading international rating agencies in the world, on the one hand, reflect the Bank's achievements and reliability and, on the other hand, offer new opportunities for its future development.


0.00
pulsuz
plastik kartlar

5

2006-cı ildə Bankın əsas maliyyə göstəriciləri

Main financial indicators of the Bank in 2006

Bank Respublika 2006-cı ildə uğurlu fəaliyyəti nəticəsində maliyyə göstəricilərinin yüksək artımına və mövqelərinin Azərbaycanın aparıcı bankları sırasında daha da güclənməsinə nail olmuşdur.

Bankın inkişafını əsas maliyyə göstəricilərinin dinamikasında müşahidə etmək olar.

As a result of its successful activity, Bank Respublika achieved high financial indexes and further strengthened its positions among the leading banks of Azerbaijan.

The development of the Bank can be observed in the dynamics of its major financial indicators.

Aktivlər

Bank Respublika-nın aktivləri 2006-cı ilin sonuna 111,3 mln. AZN olmuşdur. Bankın aktivləri ötən il 94% artmışdır və bu bank sektoru üzrə orta göstəricidən yüksəkdir.

Assets

The assets of Bank Respublika made up AZN 111.3 mln based on the results of 2006. The assets increased by 94% last year, being higher compared with the average indicator in the banking sector.

Bankın aktivləri (mln. AZN)
Assets of the Bank (mln. AZN)



Aktivlərin illik artım tempi, %
Annual growth rate of the assets, %



Bank sektoru üzrə ümumi aktivlərdə Bank Respublika-nın payı 2005-ci ildə 2,5% olmuşdursa, 2006-cı ilin yekunlarına əsasən 3,0% təşkil etmişdir.

Aktivlər üzrə Bank Respublika-nın bank sektorunda payının artımı ötən ildə uğurlu fəaliyyəti və bank sektorunda mövqelərinin güclənməsini əks etdirir.

Bank Respublika-nın aktivlərində əsas hissəni müştərilərə verilmiş kreditlər təşkil edir. 2006-cı ilin sonuna Bankın aktivlərində müştərilərə verilmiş kreditlərin payı 67,8% olmuşdur. Bankın kredit portfelinin həcmi 2006-cı ildə 2,4 dəfə artmışdır.

According to the results of 2006, Bank Respublika's share in the total assets in the banking sector was 3.0% compared with 2.5% in 2005.

The growth of Bank Respublika's share in the assets reflects its successful activity and consolidation of its position in the banking sector.

The main part of Bank Respublika's assets is loans to customers. Share of loans to customers in the Bank's assets was 67.8% towards the end of 2006. The volume of the Bank's loan portfolio multiplied 2.4 times last year.

Bankın kredit portfeli (mln. AZN)
Loan portfolio of the Bank (mln. AZN)



Kredit portfelinin illik artım tempi, %
Annual growth rate of loan portfolio, %



Bank sektoru üzrə kredit portfelində Bank Respublika-nın payı 2005-ci ildə 2,2% olmuşdursa, 2006-cı ilin sonuna bu rəqəm 3,2%-ə çatmışdır. Bankın kredit siyasəti ilə Hesabatın "Kredit siyasəti" bölməsində tanış ola bilərsiniz.

Bank Respublika's share in the loan portfolio of the banking sector reached 3.2% by the end of 2006 compared with 2.2% in 2005. For more information about the Bank's credit policy, see "Credit Policy" Chapter of the Report.

Passivlər

Bank Respublika-nın 2006-cı ildə inkişafını passivlərin də artımında müşahidə etmək olar. Bankın passivlərinin strukturunda 47,1% paya malik olan müştəri depozitlərinin həcmi 2006-cı ildə 2,3 dəfə artmışdır.

Liabilities

The progress of Bank Respublika in 2006 can also be observed in the increase in its liabilities. The volume of customer deposits with 47.1% share in the structure of Bank's liabilities increased 2.3 times in 2006.

Müştərilərin depozitləri (mln. AZN)
Customer deposits (mln. AZN)



Müştərilərin depozitlərinin illik artım tempi, %
Annual growth rate of customer deposits, %



Bank sektoru üzrə müştəri depozitlərində Bank Respublika-nın payı 2005-ci ildə 1,7% olmuşdursa, 2006-cı ilin yekunlarına əsasən 2,5% təşkil etmişdir.

Müştəri depozitlərinin sürətli artımı Bankın tanınması, müştərilərin Banka etibarının artması, Bankın xidmət şəbəkəsinin genişlənməsi və müştərilərlə daha fəal iş aparması ilə bağlıdır.

2006-cı ildə xarici və beynəlxalq maliyyə təşkilatları tərəfindən Bank Respublika üçün ayrılmış vəsaitlərin məbləği də artmışdır. Bankın istifadə etdiyi kredit xətləri haqqında Hesabatın "Beynəlxalq Əməkdaşlıq" bölməsində tanış ola bilərsiniz.

2006-cı ildə Bank Respublika-nın kapitalında da artım olmuşdur. İlin sonuna Bankın ümumi kapitalı 11,9 mln. AZN məbləğini keçmişdir və bu 2005-ci ilin yekunlarından 20,4% çoxdur. Ümumi kapitalın artımı 2006-cı ildə Bankın nizamnamə kapitalının və gəlirlərinin artımı ilə bağlıdır.

Bankın nizamnamə kapitalı həm yerli səhmdarlar, həm də 2005-ci ildən "25% + 1 səhm" payla Bankın səhmdarları olan Almaniyanın KfW bank qrupunun üzvü DEG və Sparkassen-Finanzgruppe üzvü SIDT tərəfindən yeni sərmayələr hesabına artmışdır.

Mənfəət

Bank Respublika 2006-cı ildə 13,3 mln. AZN gəlir əldə etmişdir. Ümumi gəlirlərin 81% hissəsini faiz gəlirləri, 19% hissəsini isə əməliyyat gəlirləri təşkil etmişdir. Bankın xərcləri 2006-cı ildə 10,3 mln. AZN olmuşdur.

2006-cı ildə Bankın balans mənfəəti 3,0 mln. AZN, xalis mənfəəti isə 2,35 mln. AZN olmuşdur. Xalis mənfəətin aktivlərə nisbəti (RoA) 2,1%, məcmu kapitala nisbəti isə (RoE) 19,7% olmuşdur.

Beləliklə, 2006-cı ildə maliyyə göstəricilərinin dinamik artımı Bank Respublika-nın inkişafını və nailiyyətlərini əks etdirir. Maliyyə planlarına əsasən 2007-ci ildə də Bankın sürətli inkişafının davam edəcəyi gözlənilir.

In the banking sector, Bank Respublika's share in the customer deposits was 2.5% according to the results of 2006 compared with 1.7% in 2005.

The rapid growth of customer deposits is a result of the recognition of the Bank, enhanced trust of customers, expansion of the service network of the Bank and its more active work with the customers.

The amount of funds allocated by foreign and international financial institutions for Bank Respublika increased in 2006. For more information about credit lines used by Bank Respublika, see "International Cooperation" Chapter of the Report.

Bank Respublika's capital also grew in 2006. The Bank's total capital exceeded AZN 11.9 mln towards the end of the year and is 20.4% higher compared to 2005. The growth in total capital is connected with growth of the Bank's charter capital and incomes.

An increase in the charter capital of the Bank was possible due to new shares from local shareholders, as well as the KfW banking group member DEG and Sparkassen-Finanzgruppe member SIDT of Germany, the shareholders of the Bank since 2005 with "25% plus 1 share"

Profit

Bank Respublika's income totaled AZN 13.3 mln in 2006. 81% of this amount was interest income and 19% was operational income. The Bank's expenditures were AZN 10.3 mln in 2006.

The Bank's balance-sheet profits amounted to AZN 3.0 mln, with net profit of AZN 2.35 mln in 2006. Return on assets (RoA) made up 2.1%, return on equity (RoE) was 19.7%.

The dynamic growth of financial indicators reflects Bank Respublika's progress and achievements. According to financial plans, the rapid development of the Bank is expected to continue in 2007.

6

Kredit siyasəti

Credit policy

Kredit əməliyyatları Bank Respublika-nın fəaliyyətində ən vacib sahələrdəndir. Bankın ümumi kredit portfeli 2006-cı ildə 2,4 dəfə artaraq 75,4 mln. AZN məbləğini keçmişdir. Bankın kredit portfelinin artım sürəti ötən il bank sektorunun ümumi artım göstəricisindən 2,2 dəfə çox olmuşdur.

Bank Respublika-nın kredit siyasətinin əsas məqsədi minimal risklər çərçivəsində maksimal gəlir əldə edilməsi və likvidliyin zəruri səviyyədə saxlanılması şərti ilə pul vəsaitlərinin effektiv və səmərəli yerləşdirilməsindən ibarətdir. Bankın kredit siyasətində kreditlərin verilməsi üçün prioritet sahələr və arzu olunmayan istiqamətlər də müəyyən edilmişdir.

Kredit portfelinin diversifikasiyasını və optimal strukturunu təmin etmək məqsədi ilə kredit məhsulları, məbləğlər, müddətlər, regionlar, filiallar, bir müştəri və ya müştəri qrupuna verilən kreditlər və sair meyarlar üzrə limitlər və hədəflər də müəyyən edilmişdir və buna müvafiq olaraq portfelin inkişafı həyata keçirilir.

Bank müştərilərə verdiyi kreditləri müxtəlif növlərə bölür: kreditləşmənin subyektinə görə - fiziki və hüquqi şəxslərə verilən kreditlər; müddətə görə - qısamüddətli və uzunmüddətli kreditlər; məbləğə görə – mikro, kiçik, orta və iri kreditlər; təyinata görə – istehlak, ipoteka və biznes kreditləri.

Bank Respublika-nın xüsusi diqqət verdiyi məsələlərdən biri də kredit portfelinin keyfiyyətidir. 2006-cı ilin sonuna risk altında olan kredit portfeli Bankın ümumi kredit portfelinin 0,5% hissəsini təşkil edir və bu Azərbaycan bank sektorunda ən yaxşı göstəricilərdəndir.

Bankın fəaliyyətində biznes kreditləşməsi vacib istiqamətlərdəndir. Müştərilərə biznes kreditlərini Bank həm özünün, həm də müxtəlif yerli və beynəlxalq maliyyə institutlarından cəlb etdiyi vəsaitlərdən verir.

Bank Respublika biznes kreditləşməsi və ticarətin maliyyələşdirilməsi üzrə Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, FMO, DEG, Qara Dəniz Ticarət və İnkişaf Bankı, Alman-Azərbaycan Fondu, Raiffeisen Bank, Commerzbank AG və digər maliyyə

Lending operations are one of the important areas for Bank Respublika. The Bank's total loan portfolio exceeded AZN 75.4 mln increasing 2.4 times in 2006. The increase rate of the Bank's total loan portfolio was 2.2 times higher than the general increase index of the banking sector.

The key goal of Bank Respublika's credit policy is the effective and efficient placement of monetary assets provided maximum profit within the minimal risks and maintaining the necessary liquidity level. The Bank's credit policy has defined priority lending areas and undesirable directions accordingly.

Credit products, amounts, terms, regions, branches, loans given to one customer or to a group of customers and limits and targets on other criteria were established with the purpose of ensuring diversification and optimal structure of loan portfolio.

Customer credits granted by the Bank are divided into various types: credits for individuals and legal entities depending on the subject of loan; short term and long term credits depending on terms; micro, small, medium and large credits depending on the amount; consumer, mortgage and business loans depending on the purpose.

Bank Respublika also gives a special attention to the quality of loan portfolio. Portfolio at risk as of the end of 2006 constitutes 0.5% of the total loan portfolio of the Bank which is one of the best indexes in the banking sector of Azerbaijan.

Business lending is another important direction in Bank Respublika's activity. The Bank grants business loans to customers from its own funds and from the resources derived from various local and international financial institutions.

Bank Respublika cooperates on the business lending and trade financing with the European Bank for Reconstruction and Development, Asian Development Bank, FMO, DEG, Black Sea Trade and Development Bank, German-Azerbaijan Fund, Raif-

təşkilatları ilə əməkdaşlıq edir. Bu əməkdaşlıq haqqında Hesabatın "Beynəlxalq Əməkdaşlıq" bölməsində tanış ola bilərsiniz.

Bank həmçinin Sahibkarlığa Yardım Milli Fondu ilə əməkdaşlıq edərək sahibkarlığın kreditləşməsi üzrə Dövlət Proqramında da fəal iştirak edir. Bank Respublika 2006-cı ildə ölkənin müxtəlif regionlarında kreditləşməni də xeyli genişləndirmişdir.

Bankın kredit fəaliyyətinin digər mühüm istiqamətləri əhaliyə istehlak və ipoteka kreditlərinin verilməsidir. Bu sahədə Bank Respublika müxtəlif kredit məhsulları təklif edir – "Avtomobil krediti", "Ev təmiri", "İpoteka", "Təhsil", "Faydalı səyahət", "Yeni ailə", plastik kartla kredit və sair məhsullar.

